*Azad Talışoğlunun "Mübarək"i*

# İNSANLIĞIN POEZİYASI

Təbiətdəki hər bir mənzərə gözəldir. Ağacın qırılan budağına, küləklər qabağında sovrulan yarpaqlarına da baxıb gördüyümüz mənzərədən cəmiyyət üçün təsir məqamları göstərə bilərik. Elə zəngin adamların da mənəvi aləmi təbiətə bənzəyir. Rəssamlar eyni mənzərəni müxtəlif tərəflərdən görə bilir. Onu özlərinin görüm bucağından rənglərə köçürürlər. Şairlər də insan təbiətini hər kəs öz aynasında gördüyü kimi yazıya gətirir.

Azad Talışoğlu altmış, yetmişinci illərin tanınmış şairlərindən idi. Bidiyimə görə hüquq mühafizə orqanlarında çalışıb. Sovet dövründə beləydi ki, hüquq mühafizə orqanlarının əməkdaşlarına sözlə, ədəbiyyatla vaxt keçirməyi qəbahət bilirdilər. Azad Talışoğlu isə sözlə, ədəbiyyatla vaxt keçirmirdi. İmkan olanda öz hisslərini, duyğularını qəlbinin səsi, könlünün istəyi ilə poeziyaya, şeirə gətirirdi. Şübhəsiz dövrün tanınmış naşiri olan Şəddad Cəfərovu o da yaxşı tanıyırdı. Hər ikisi sözə, sənətə bağlı idi.

Şəddad Cəfərov kimi bir ziyalının altmış illik yubileyi geniş ictimaiyyət tərəfindən qeyd olunanda Azad Talışoğlu da özünün söz sovqatını əsirgəməyib. Məlumdur ki, Şəddad Cəfərovun altmış illik yubuleyi 2000-ci ildə qeyd olunub. Və Azad Talışoğlu da "Mübarək" adlı şeirini dostuna təbrik məqsədi ilə yazıb. Şeirin əvvəlində Şəddad müəllimin yaşı xatırlanır. Arzulanır ki, o, hələ bir altmış da yaşasın. Bundan sonra sanki dostunun mənəvi aləmini səyahətə çıxır. Şeirdə kitab aləminə bağlılığı, vətən naminə fədakarlıqları... bu yolda hər cür çətinliklərə qalib gələrək, qəlbinin məğrurluğunu qoruyaraq, Vətənə məhəbbət, xalqa məhəbbət hislərini uca tutaraq yaşamağın üstünlükləri, aliliyi ilhamlı bir duyğu və şirin bir dillə tərənnüm olunur:

Qəlbinin odunu verdin kitaba,
Hər kitab səninçün bir uğur oldu.
Canıntək sevdiyin hər el, hər oba
Həyat yollarında sonsuz nur oldu,
Hər kitab səninçün bir uğur oldu.

Gecəni-gündüzü yatmadın bəzən
Şərəfli zəhmətlə keçdi hər anın.
Sənin də səyinlə anamız Vətən
Gördü səfasını şöhrətin, şanın,
Şərəfli zəhmətlə keçdi hər anın.

Azad Talışoğlu yaxşı tanıdığı Şəddad Cəfərovu sanki müharibə iştirakçısı kimi tərənnüm edir. Onu, gecəni-gündüzə qatıb işləyən, zəhməti həyatının mənası bilən bir insan kimi xarakterizə edir. Və burada maraqlı olan odur ki, Azad Talışoğlu əslində poetik bir çalarla olsa da demək istəyir ki, Azərbaycanın müstəqilliyə qovuşmasında Şəddad Cəfərov kimi insanların zəhməti əvəzsizdir, çox dəyərlidir. Əgər Şəddad Cəfərovların cəfası olmasa idi, heç vətən də müstəqillik səfasına qovuşa bilməzdi. Doğrudur, biz bir çox həqiqətləri tarixdə mühüm rolu olan siyasətçilərin ayağına yazırıq. Həqiqətən də lider səyahətçilər olmasaydı vətən də azadlığa qovuşa bilməzdi. Ancaq burası da həqiqətdir ki, Şəddad Cəfərov kimi fədakarlar olmasaydı, siyasi həqiqətləri fədakarlıqla müdafiə edənlər olmasaydı, onda heç siyasi liderlər də gücsüz olardılar. Siyasi liderlərin gücü Vətənə, birliyə, bütövlüyə, dövlətə, dövlətçiliyə sədaqətli insanların varlığındadır. Şəddad Cəfərov ona görə poeziyanın tərənnüm obrazıdır ki, o, Vətənə, dövlətə, dövlətçiliyə sadiqdir, Ulu Öndərə sadiqdir. Azad Talışoğlu da bəsirət gözü açıq bir şair kimi onun bu keyfiyyətlərini yaxşı görür:

Daim sevindirdi məğrur qəlbini
Vətən məhəbbəti, xalq məhəbbəti.
Bir şair təbi tək coşqun təbini
Cövlana gətirdi haqq məhəbbəti,
Vətən məhəbbəti, xalq məhəbbəti.

Ümumiyyətlə, Şəddad Cəfərova həsr olunan şeirlərdə onun xeyirxahlığı əsas keyfiyyət kimi üstün tutulur. Bu xeyirxahlıqlar Şəddad müəllimə maddi çətinliklər bahasına başa gəlsə də, ona el məhəbbəti qazandırıb. Azad Talışoğlu da bu yolda Şəddadın az cəfalar çəkmədiyini yazır. Onun hər əməlinin cəmiyyət üçün bir çıraq olduğunu, məşəl olduğunu, hətta insanlıq aləmində günəş kimi yanıb alışdığını öz səmimiyyəti ilə çatdırır. Həm də bu şeirdə səmimi etiraflar oxucunun qəlbini də riqqətə gətirir. Azad Talışoğlu ona ömrü boyu minnətdar olduğunu bildirir. Çünki Şəddad onun da əlindən az tutmayıb. Azad Talış oğli Şəddad Cəfərovu təkcə eloğlusu kimi tərənnüm etmir, onu böyük insan kimi tərənnüm edir, öz dostuna sonsuz sevgilər bəslədiyini və bu üzdən Şəddad müəllimi öz dünyası, ümid ulduzu kimi gördüyünü də səmimi etiraf edir:

Əsla yorulmadın, daim çalışdın,
Uzatdın hamıya kömək əlini.
Doğan günəş kimi yandın, alışdın,
Məşələ çevirdin hər əməlini,
Uzatdın hamıya kömək əlini.

Mənim də əlimdən az tutmayıbsan,
Sənə ömrüm boyu mən minnətdaram.
Xətrini qəlbimdə anaram inan,
Bu qoca dünyada nə qədər varam,
Sənə ömrüm boyu mən minnətdaram.

Bəli, insan insanı yaxşı tanıya bilər. Yaxşı tanıdığı halda onun ünvanına qaralar yaxa bilər. Bu onun özünün mənəvi keyfiyyəti ilə bağlıdır. İnsan özü cılızdırsa, gözünün önündəkinin böyüklüyünü görə bilməz. Amma insanın təbiətində böyüklük varsa, o, yaşadığı mühitin bütün rənglərini əlvanlığı ilə görə biləcək. Və bu qoca dünyanın da gəldi, gedərindən xəbərdar olacaq. Yaxşı anlayacaq ki, bu qoca dünyada nə sevgi ilə tərənnüm elədiyi Şəddad Cəfərov axırıncıdır, nə də onun özü birincidir. Demək bir müdrik olaraq həm yazan, həm də haqqında yazılan ən ali keyfiyyətləri uca tutursa, bu qoca dünya da onların heç birini, heç vaxt unutmayacaq. Azad Talışoğlu da sevgi ilə tərənnüm elədiyi Şəddad Cəfərovu elə qoca dünyanın gözü ilə görür:

Əziz eloğlumsan, canım, ciyərim
Səninlə həmişə öyünürəm mən!
Yerdə yer üzümsən, göydə ülkərim,
Eşqin, məhəbbətin çıxmaz sinəmdən,
Səninlə həmişə öyünürəm mən!

İnsanın yer üzünə bənzədilməsi, göy üzündəki ən parlaq ulduza - ülkərə timsal tutulması, bəlkə də, təzə ifadə deyil, amma bu təşbehlər o qədər səmimi səslənir ki, biz bu məcazları sanki ilk dəfə eşidirmiş kimi qəbul edirik. Əsərdə tərənnüm olunan obraz kimi Şəddad müəllimin təbiət etibarı ilə çətinliklərə dözümü, məhrumiyyətlərə sinə gərməsi, haqsızlıqlara dözməsi, hər halda, onun böyük iradə, sarsılmayan mənəvi güc sahibi olmağından xəbər verir. Şübhəsiz bütün bunları Azad Talışoğlu da bilirdi. Elə ona görə də öz şeirində həmin motivləri yada salır. əyilməzliyini, qüruru ilə şax gəzdiyini tərənnüm etməkdən bir müəllif kimi zövq aldığını gizlətmir. Ona görə öz ədəbi qəhrəmanının şəninə ən gözəl sözlər seçməklə, duyğularını ifadə etməyi özünə borc bilir. Və şeirin sonunda da bu yüksək ruhu saxlamağa çalışır. Çünki, yaxşı bilir, eli sevəni aləm sevər:

Yolunda gah duman, gah da çən oldu,
əsla əyilmədin, daim şax durdun!
Ömrün bəzən qəmli, bəzən şən oldu,
Mənfur əməllərə zərbələr vurdun,
Əsla əyilmədin, daim şax durdum.

Alqışlar deyirəm sənin şəninə,
Axı bu şöhrətə şana layiqsən.
Adına min nəğmə, yazsam da yenə,
Daim yazacağam, yazacağam mən
Axı bu şöhrətə şana, layiqsən!

Insan inadkar məxluqdur. əgər bəsirət gözü açıqdırsa, dünyanı əlvanlığı ilə görə bilirsə, o öz həqiqətinin böyüklüyünə inanır. Və elə bu səbəbdən də öz həqiqətinin müdafiəsində axıracan dayanır. Biz Azad Talışoğlunun şeirində inadkarlıq görürük; yəni özünün dərk elədiyi həqiqəti axıracan müdafiə eləmək, axıracan öz həqiqətinin keşiyində durmaq inadkarlığını... biz bu inadkarlığı təqdir edirik. Çünki bu inadkarlıqda həqiqətə tapınma var, hyəqiqəti qoruma instinqti var. Və elə bu məqamda həm şairin özü, həm də onun tərənnüm elədiyi obrazı - Şəddad Cəfərov obrazı bizim üçün dünya nizamının keşikçisi timsalında görünür. Çünki biri həqiqəti tərənnüm edir, biri də həqiqətin təmsilçisidir. Və məhz dünya nizamı bu iki tərəfdən asılıdır. Əsl həqiqət isə el gözünün tərəzisində ortaya çıxır. Həqiqi dəyərini alır. Və əslində elə Azad Talışoğlu da bunu deyir:

Səni bütün ellər, obalar sevir,
Hamının fərəhi, iftixarısan.
Azad Talışoğlu ürəkdən deyir
Nəğməli qəlbimin şah vüqarısan,
Hamının fərəhi, iftixarısan!

Beləliklə, hamının fərəhi, iftixarı olan Şəddad Muğdat oğlunu Şair Azad Talışoğlu da layiq olduğu mərtəbədə görür. Və onu özünün "Nəğməli qəlbinin şah vüqarı" kimi tərənnüm edir. Çünki Şəddad Cəfərov hər kəsin fəxri və iftixarıdır. Burada da qeyd etmək yerinə düşər ki, Şəddad Cəfərov şeirin yazıldığı zamandan bəri, iyirmi il ərzində yenə də söz-sənət adamlarının sevdiyi ədəbi qəhrəman kimi tərənnüm olunmaqdadır.

**Rəfiqə Nurayın "Şəddad" essesi**

Rəfiqə Nuray (Hüseyn) imzası ilə tanınan müəllifdir. Yazılarının siqləti ilə, məna tutumu, apardığı paralellər ilə oxucularının həmişə diqqətindədir. Təqribən on il bundan əvvəl Şəddad müəllimin yetmiş illiyində maraqlı bir esse yazıb. Esse "Şəddad" adlanır. Amma burada iki Şəddad var. biri tarixi əfsanəvi firon obrazı, digəri müasirimiz olan - tarixi əfsanəvi obrazın təbiət etibarı ilə əksi olan Şəddad.

Rəfiqə Nuray maraqlı bir müqayisə aparır. əvvəlcə adlar haqqında danışır. Adın insan taleyində daşıdığı missiyanı yada salır: "Deyirlər, insanın adı özündən özündən qabaq gəlir dünyaya. Bəzən gözəl mənalar verən ad sahibləri adlarını doğrulda bilmirlər. Nə yaxşı ki, həyatda adlarını hörmətə-izzətə mindirənlər, hətta mənasını dəyişdirənlər də var." Doğru qənaətlərdir. Ada yanaşma məsələsi baxımından düşündürücüdür. Hətta yaramayan bir adı belə şəxsiyyət, cəmiyyətin gözündə yüksəldə bilər. İnsanlar həmin adın bir işıq mahiyyətini görərlər. Rəfirə Nuray elə buradaca Şəddad müəllimin adını yada salır. Ancaq bəlkə də hissə qapılaraq adını xeyirə yozum kimi dəyişdirənlər sırasında Şəddad Cəfərovu yeganə hesab edir. Amma yanaşma doğrudur. Həqiqətən Rəfiqə Nurayın illərlə tanıdığı Şəddad müəllim xeyirxahləıq rəmzidir. Həqiqətən onun adını kim eşidirsə, ilkin olaraq yaddaşda xüyirxahlıq, mənəvi ucalıq obrazı canlanır. Rəfiqə Nurayın essesinin davamını oxumaq da maraqlıdır: "Uzun illər tanıdığım və müşahidə etdiyim Şəddad Cəfərov bəlkə də yeganə insandır ki, adına yeni nəfəs, yeni məna verib. Şəddad zalım bir şahın adı olub. Bizim Şəddad isə öz xeyirxahlığı, fərdi keyfiyyətləri və dünyadan təmənnasızlığı ilə adındakı mənanı kökündən dəyişib, şəri xeyrə təslim edib. Belə insanların adı şübhəsiz ki, tarixə böyük hərflərlə yazılar. Kaş Tanrı adından asılı olmayaraq hər kəsi belə gözəl ürək sahibi yaradaydı. Ona həsr etdiyim şeir cəmi 6 misradan ibarət olsa da, 70 illik ömür yolunun işığından bəhrələnib". Buradakı xeyirxahlıq istəyi Rəfiqə Nurayın qəlbinin səsi kimi eşidilir. O, hər bir insanı öz adının keşiyində Şəddad müəllim kimi durmağı arzulayır. Bu yerdə mənim də yaddaşımda bir zaman işlətdiyim ifadə yenidən canlanır: "hər kəsin birinci ehtiramı öz adına olmalıdır". Bu qeydi mən "Karvan körpüdən keçir" kitabımın epiqrafı kimi vermişəm. Rəfiqə Nuray ədəbiyyatda az qala unudulmuş bir janrda öz istəyini poetik formaya salır:

Şahların ən zalımı Şəddad adı daşıyıb,
Əlləri qanlı olub lənətlərlə yaşayıb.
Dünyaya qədəm atıb, ağlın söz kəsən gündən,
Dəyişdirdin adının mənasını dərindən.
Alnı açıq, gözü tox xeyirxah insan oldun,
Tale yazan bu adla dərdlərə loğman oldun.

Bu altı misralıq şeirin hər misrasının əvvəlində elə sözlər seçilir ki, misraların ilk hərfləri əsərin qəhrəmanının adını ifadə edir.

Şairə, esseist Rəfiqə Nurayın yazısında Şəddad Cəfərov xeyirxahlığı ilə işıqlı bir sima kimi təqdim olunur. əslində işıqlı olmayan adam heç xeyirxah da ola bilməz. Hər halda qeyriləri üçün işıqlı olmaq çətin olsa da təbiətində işıq olan insan üçün bu adi həyati bir normadır. Həqiqətən Şəddad müəllimin qolundan tutub işıqlığa çıxartdığı insanların sayı az deyil. Onlardan biri də elə qardaşı Fərhaddır. Fatma Həsənqızının "Acılı şirinli günlər" sənədli romanında Fərhadın da xatirələrinə yer ayrılıb. O, böyük qardaşının təbiətində necə örnək götürdüyünü kiçik bir epizod da belə bildirir: "Bir hadisə heç vaxt yadımdan çıxmaz. 1968-ci il idi. Onda 17 yaşım var idi. Azərbaycandan kənara çıxmamışdım. Avqust ayında Moskvada poliqrafiya sahəsində sərgi keçirilirdi. Şəddad ilk dəfə olaraq məni uzaq səfərə apardı. Sərginin təşkilində bilavəsitə iştirak etdim. Bu səfərim mənə o qədər yaxşı və dərin təsir bağışladı ki, qardaşım kimi oxuyub ali təhsilli olmağı qarşıma məqsəd qoydum." Beləcə bir işıqlı adamdan ibrət götürən bir gənc, həyatın faydalı bir insanına çevrilir. O, sanki öz həyatını böyük qardaşının həyat düsturu altında qurur. Ali təhsilli mütəxəssis olmaq üçün müəyyən yol seçə bilir. Rəfiqə Nuray essesinə əlavə etdiyi bir parça şeirdə də insan, dünya, tale obrazları əsasında onun xeyirxahlığını və məhz xeyirxahlığından yaranan işıqlı siması daha qabarıq təqdim edir. Müəllifin mənəvi mühitindəki aydın obraz ziyalılığı təcəssüm etdirir. Kimlər üçünsə qaranlıq olan həyat məhz bələlərinin timsalında işıqlığa çevrilir.

Rəfiqə Nurayın da "Şəddad" essesi heç şübhəsiz dövrümüzün görkəmli naşiri və ziyalısı, söz-sənət adamı Şəddad Cəfərova sevgidən qaynaqlanır. Bəli, sevgiyə layiq olanları tərənnüm etmək cəmiyyətin gələcəyə inamı yolunda işıq yandırmaqdır.

*26.11.2019*